# "Ü M İ D" SOSİAL İNKİŞAFA DƏSTƏK İCTİMAİ BİRLİYİ

*İNFORMASIYA BÜLLETENİ №4, 2012*


## *ABŞ Hökumətinin Əhali, Qaçqınlar və Miqrasiya Bürosunun dəstəyi ilə Azərbaycanda məskunlaşmış Qaçqın və Məcburi Köçkünlər üçün peşə təlimi və gəlirin yaradılması*

*Layihədən birbaşa 1330 nəfərin faydalanması planlaşdırılır - 600 qaçqın Bakı şəhərində və 730 məcburi köçkün Sumqayıt şəhərində. Dolayı faydalanları nəzərə almaqla, ümumilikdə layihədən faydalananların sayının 4000 nəfərə çatdırılması gözlənilir.*

"Azərbaycanda Məskunlaşmış Qaçqın və Məcburi Köçkünlər üçün Peşə Təlimi və Gəlirirn Yaradılması" layihəsinin hədəf qrupu Bakı və Sumqayıt şəhərlərində məskunlaşmış qaçqın və məcburi köçkünlərdir. Gənclərə xüsusi diqqət verilir.

Layihənin məqsədi Bakı və Sumqayıt şəhərlərində məşkunlaşmış məcburi köçkün və BMT QAK-ın qeydiyyatında olan qaçqınların özünə inam hissinin artmasının gücləndirilməsindən ibarətdir. Layihənin əsas vəzifələrindən biri qaçqın və məcburi köçkünlərin peşə bacarıqlarını artırmaqla onların gəlir əldə etmək şanslarını artırmaq və kiçik biznes qurmaqda texniki və maddi dəstək göstərməkdir.

Birinci rübdə ilkin olaraq təşkilatı məsələlər, ofisin əyani vasaitlərinin yanilənməsi, yeni kompüterlərin quraşdırılması və tədris olunacaq kompüter proqramlarının yeni versiyalarının yüklənməsi kimi işlər görülmüşdür. Layihənin məqsəd və vəzifələri, fəaliyyət istiqamətləri, yanaşma sı və s. məsələlərlə bağlı QQGM-də görüşlər keçirilmişdir.



*Bakıda QQGM-gə görüş*

**Usta Yayında Şagird Hazırlığı (UYŞH) kurslarının təşkili** ilə bağlı QQGM-də təşkil olunmuş görüşlərdə UYŞH komponentinin mahiyyəti, əsas yanaşma prinsipləri barədə məlumat verilmişdir. Görüş iştirakçılarına bu ildən başlayaraq yeni müasir peşə sahələri üzrə də kursların təşkilinin nəzərdə tutulması barədə məlumat verilmişdir. Kursların təşkili ilə əlaqədar elanlar verilmişdir.

UYŞH kurslarında iştirak etmək üçün Bakı şəhərində 28 qaçqın və Sumqayıtda 48 MK gənc müraciət etmişdir. Ən çox müraciət edənlər qadınlar olmuş, ən çox maraq isə qadın bərbəri və tibb bacısı peşələrinə olmuşdur. Seçım meyarlarına uyğun olaraq, ilkin seçimdə 4 nəfərin UYŞH kurslarına cəlb edilməsi planlaşdırılır. Bakı şəhəri üzrə kurslar 2013-cü ilin əvvəlindən başlayacaqdır.

Sumqayıtda və ona yaxın ərazilərdə yerləşən 10 icmada məcburi köçkün icmalarının fəalları və icma liderlərinin iştirakı ilə layihə barədə görüşlər keçirilmişdir. Görüşlərdə layihənin məqsədi, qarşıda duran vəzifələr və öhdəliklər, o cümlədən UYŞH kursları və kompüter təlimləri barədə geniş məlumatlar verilmişdir. Məcburi köçkünlərin sıx məskunlaşdığı ərazilərdə elanlar vurulmuşdur.



*Sumqayıtda Xələc icmasında görüş*

**Kompüter kursları və internet xidmətləri -** Kompüter kurslarının üç proqram üzrə təşkil olunması planlaşdırılmışdır: MS Office 2007, Adobe Photoshop və Corel Draw. Birinci rüb ərzində kompüter kurslarına müraciət edənlərin sayı Bakı şəhərində 17 nəfər, Sumqayıtda isə 50 nəfər olmuşdur. Daha çox maraq ofis proqramlarına göstərilmişdir-14 nəfər.

Müraciətlərin təklifi əsasında və ötən ildə kurslara müraciət edənlərin marağını nəzərə alaraq birinci rübdə Bakı şəhərində 13 nəfər kurslara cəlb edilmişdir. Onlardan 7-si kursları uğurla başa vurmuş, digərlərin kursları isə davam etməkdədir. İnternetdən istifadə etmək məqsədilə 104 nəfər kompüter mərkəzinin imkanlarından istifadə etmişdir.

**Biznes təlimləri və kredit institutları ilə əlaqələndirmə** - Kiçik biznesin təşkili, idarəedilməsi, maliyyə dövriyyəsinini nəzarətdə saxlamaq kimi ciddi məsələlər biznes təlimləri vasitəsilə qaçqınlara öyrədiləcəkdir. Bu məqsədlə, təşkilatın biznes məsləhətçisi tərəfindən 5 mövzuda təlim paketi hazırlanmışdır. Təlimlərin qruplarda verilməsi planlaşdırılmış və bundan ötrü ötən illərdə peşə kurslarını bitirmiş və bu gün evdə və ya səyyari olaraq xidmət göstərən, eləcədə kiçik biznesi olan qaçqınların ilkin siyahısı tərtib edilmiş və həmin siyahı əsasında qrupların ilkin tərkibi müəyyən edilmişdir.

## *Bu sayımızda:*


*ABŞ Hökumətinin Əhali, Qaçqınlar və Miqrasiya Bürosunun dəstəyi ilə Azərbaycanda məskunlaşmış Qaçqın və Məcburi Köçkünlər üçün peşə təlimi və gəlirin yaradılması* 1

*Azərbaycanda məskunlaşmış qaçqın və sığınacaq-axtaranların bacarıqlarının artırılması* 2

*"Gəlir və iş imkanlarının artırılması yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək* 3

*SEDA layihəsi üzrə növbəti uğurlar* 4

*Uğurlu sonluq ən böyük hədiyyədir* 5

*Coca-Cola Fondunun dəstəyi ilə məktəblərdə ekoloji tərbiyə və təhsil* 6

# Azərbaycanda Məskunlaşmış Qaçqın və Sığınacaq Axtaranların bacarıqlarının artırılması

BMT QAK-nın dəstəyi ilə həyata keçirilən “Azərbaycanda Məskunlaşmış Qaçqın və Sığınacaq Axtaranların bacarıqlarının artırılması üçün peşə təlimi” layihəsinin əsas məqsədi hədəf qrupun iqtisadi imkanlarını yaxşılaşdırmaqdır. Qoyulmuş məqsədə nail olmaq üçün layihə qarşısında aşağıdakı vəzifələr durur:

- Qaçqın və sığınacaq axtaran gənclərin Usta Yayında Şagird Hazırlığı (UYŞH) kurslarına cəlb etməklə, bilik və peşə bacarıqlarınnı artırmaq;
- Qaçqın və sığınacaq axtaranları QQGM-nin təlim mərkəzində təşkil olunan kompüter kurslarına cəlb etməklə, onların kompüter, o cümlədən internetdən istifadə etmək bacarıqlarını artırmaq;
- Qaçqın və sığınacaq axtaran ailələrin uşaqları üçün beynəlxalq yay düşərgəsini təşkil etmək.

*Dövlət Statistika Komitəsinin məlumatına görə, 687 min MK-dən təxminən 50 min nəfəri Sumqayıt və ətraf ərazilərdə məskunlaşmışlar. Onlar Azərbaycan Respublikasının 10 işğal olunmuş rayonundan didərgin düşmüş insanlardır.*

## 1) Qaçqın və sığınacaq axtaran gəncləri Usta Yayında Şagird Hazırlığı (UYŞH) kurslarına cəlb etməklə, bilik və peşə bacarıqlarının artırılması



*Qadın bərbəri sahəsində təlim*

Layihənin sonuncu rübü zamanı, əsasən UYŞH kurslarının monitorinqi həyata keçirilmiş, o cümlədən şagirdlərin davamiyyəti, sahələrin lazımi materiallarla təchizatı və onların istifadəsinə nəzarət edimişdir. Şagirdlərin davamiyyəti hər zaman olduğu kimi qənaətbəxş idi, şagirdlər qrafikdən əlavə olaraq ustalarının təklifi ilə sahələrə gələrək daha çox praktiki işlər görür və bununla da bacarıqlarını artırmış olurdular. Layihə ilinin sonuna baxmayaraq, UYŞH metodu ilə təşkil olunan peşə kurslarına müraciətlər azalmamışdır. Belə ki, son üç ayda 25 nəfərin müraciət ərizəsi qeydə alınmışdır (qadınlar üstünlük təşkil edirdi). Bu rübdə, UYŞH kurslarını bitirən şagirdlərin sayı 5 olmuşdur (qadın bərbəri – 3, vizaj – 2). Onların hamısı müvafiq sertifikatlarla təltif edilmişdir.

Yekun nəticəyə görə layihə müddəti ərzində 88 sayda müraciət ərizəsi qeydə alınmışdır. Daha çox maraq qadın bərbəri və tibb bacısı sahəsinə göstərilmişdir. Layihənin seçım meyarlarını rəhbər tutaraq, peşə kurslarına 25 şagird cəlb edilmişdir. Onların hamısı kursları müvəffəqiyyətlə bitirmiş və sertifikatlarla təltif edilmişdir.

UYŞH metodu ilə təşkil edilən kurslarının təkmilləşməsi məqsədilə peşə sahələrində, QQGM-də 6 görüş təşkil edilmişdir. Görüşlərə dəvət olunan müdavimlər, ustalar, valideynlər, gənclər öz təəsüratları ilə bölüşmüş, kursların effektivliyinə müsbət təsir edə biləcək fikirlər söyləmiş, təkliflərini vermişlər. Təşkil edilən bütün görüşlər donor təşkilatının məsul şəxslərinin birbaşa iştirakı ilə keçirilmişdir.

## 2) Qaçqın və sığınacaq axtaranların kompüter, o cümlədən internetdən istifadə etmək bacarıqlarının artırılması

Dördüncü rüb ərzində kompüter təlimlərində iştirak etmək üçün 17 nəfər müraciət etmişdir. Ərizələrə əsasən MS Office 2007 proqramına maraq daha çox idi – 14 ərizə. Digər ərizələr Adobe Photoshop və Corel Draw proqramlarına idi. Rüb ərzində 6 nəfər kompüter təlimlərinə cəlb edilmiş və uğurla kursları bitirmişlər.

Bütöv layihə müddətində, 40 nəfər MS Office 2007 və Adobe Photoshop proqramları üzrə kompüter kurslarını müvəffəqiyyətlə bitirmişlər.

İnternetdən istifadə edən və bu sahədə bacarıqlarını artırmaq istəyənlərin sayı 253 nəfər təşkil etmişdir.



*Kompüter təlimi iştirakçılarına sertifikatların verilməsi*

## 3) Qaçqın və sığınacaq axtaran ailələrin uşaqları üçün beynəlxalq yay düşərgəsinin təşkili



*QQGM-də Beynəlxalq Düşərgə iştirakçılarının valideynləri ilə görüş*

Beynəlxalq yay düşərgəsinin nəticələri və ümumiyyətlə onun təşkili qaçqın icmalarının diqqət mərkəzindədir. Düşərgədə iştirak edən uşaqların davranışında baş vermiş müsbət dəyişikliklər valiydeynlərlə təşkil edilmiş görüşlər zamanı aparılan müzakirələrdə müşahidə olunurdu. Düşərdə barədə danışıqlar başqa uşaqlarda maraq yaradırdı. Valideynləri və uşaqların özləri onların da düşərgədə iştirak etmək istədiklərini söyləyirdilər və növbəti illərdə belə bir layihənin yenidən təşkil edilməsini istədiklərini bildirirdilər.

*Birləşmiş Millətlər Təşkilatına görə, qaçqınlar dedikdə “irq, din, milliyyət, xüsusi sosial qrupun üzvü və ya siyasi düşüncənin sahibi olduğu üçün təqib olunmaq qorxusuna məruz qalma səbəbindən öz doğma yurdlarını tərk edən insanlar nəzərdə tutulur”.*

# Gəlir və iş imkanlarının artırılması yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək

1998-ci ildən "Ümid" SİDİB yerli qeyri hökümət təşkilatı kimi BMT QAK-ın maliyyə dəstəyi ilə məcburi köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün var qüvvəsi ilə çalışır. Belə ki, 50 000-ə yaxın məcburi köçkünün məskunlaşdığı Sumqayıt şəhərində və ona yaxın ərazilərdə 1998-ci ildən bu günə kimi bir neçə layihənin həyata keçirilməsinə müvəffəq olub və bu gün də layihələrin icrası davam etdirilir. Valideynlərini itirmiş, imkansız, köçkün, şəhid ailələrinin təhsil almaq iqtidarında olmayan gənclərini müxtəlif tipli sənətlərə cəlb etmək üçün Ümid təşkilatı 1998-ci ildən bu günə kimi "Gənclər üçün gəlir və iş imkanlarının artırılması və aztəminatlı ailələrə maddi-texniki yardım göstərmək yolu ilə Azərbaycandakı məcburi köçkünlərə dəstək" layihəsini çox böyük uğurla həyata keçirir.



*Peşə təlimi kurslarını bitirənlərə sertifikatların verilməsi*

Hər il yüzlərlə gənc oğlan və qızlar təşkilatın dəstəyi ilə bir sənətkar kimi hazırlanıb həyata sənətkar vəsiqəsi ilə buraxılır. Bu yolla, onlar yoxsulluğun daşını atıb müxtəlif sahələrdə öz bizneslərini qururlar. Ötən illərdə olduğu kimi, bu il də "Usta yanında şagird hazırlığı" komponenti məcburi köçkünlərin məskunlaşdıqları Sumqayıt şəhərində və ona yaxın ərazilərdə uğurla həyata keçirilmişdir. MK gənclər müxtəlif sənətlərə yiyələnməklə bərabər onlara ilkin kompüter bilgiləri də verilmiş, eyni zamanda onlar günün bütün saatları internet xidmətindən də pulsuz istifadə etmişlər.



*Foto-video sahəsində təlim*

2012-ci ilin 4-ci rübü ərzində, layihə məqsədlərinə nail olmaq üçün fəaliyyətlər iki istiqamətdə həyata keçirilmişdir:

**1) MK gəncləri peşə təlimi kurslarına və biznes təlimlərinə cəlb etməklə onların gəlir və məşğulluq imkanlarının artırılması**

İlin əvvəlindən bugünə kimi 20 MK gəncə müxtəlif peşələr öyrədilmiş, bunlardan 9 nəfəri artıq müstəqil usta kimi fəalliyyət göstərməklə ailələrinə qazanc gətirirlər. Sahələri bitirmiş digər gənclər isə evlərində fəaliyyət göstərirlər.

Ümumilikdə, 1 nəfər özü üçün yeni iş yeri açmış, 8 nəfər isə sahədə qalıb usta kimi fəaliyyət göstərirlər. Bundan əlavə, iş yeri axtaran digər müdavimlər üçün yeni iş yerləri barədə araşdırmalar aparılmış və onlara məlumatlar verilmişdir.



*Peşə təlimi kurslarını bitirən gənclərə qrantların verilməsi*

IV rüb ərzində, 6 MK gənc qadın bərbəri və foto-video sahələrini müvəffəqiyyətlə başa vuraraq sertifikatlarını almışlar.

Təlimləri müvəffəqiyyətlə başa vuran və artıq özləri üçün yenicə biznes fəaliyyəti quran 8 gənc ustaya ümumilikdə 3865 AZN məbləğində qrant verilmiş və həmin vəsaitlə onlara müasir tipli avadanlıqlar alınıb verilmişdir.

**2) MK gənclərin kompüter bacarıqlarının artırılması, faydalananların bilik və bacarıqları üzrə məlumat bazasının hazırlanması**

Kompüter təlimi sahəsi üzrə 2012-ci ilin oktyabr-dekabr ayları ərzində MS Office (MS Word 2007, Excel 2007, Power Point,Outlook) proqramları üzrə həftədə 2 dəfə 1,5 saat olmaqla "Ümid" SİD İB-nin Sumqayıt ofisində təşkil edilmiş kompüter təliminə cəlb olunmuş 15 nəfər təlimləri müvəffəqiyyətlə başa vuraraq sertifikatlarını almışlar. Ümumilikdə, bugünə kimi kompüter təliminə 40 nəfər gənc və yeniyetmələr cəlb olunmuşlar.

Təşkilatımız tərəfindən gənclər üçün təşkil edilmiş pulsuz internet xidmətindən oktyabr-dekabr ayları üzrə 59 nəfər, ümumilikdə layihə üzrə isə 206 nəfər gənc və yeniyetmələr faydalanmışlar.



*"Ümid" SİD İB-nin Sumqayıt ofisində MK gənclər üçün kompüter təlimi*

***Usta yanında şagird hazırlığı metodu ilə peşə təliminin məqsədi praktiki və nəzari biliklərin elə formada verilməsidir ki, maraqlanan şəxs tam olaraq bacarıqları və bu bacarıqların aid olduğu məşğuliyyət sahəsi üzrə nəzari məlumatı öyrənə bilsin. Hər hansı şəxs "usta yanında şagird hazırlığı metodu ilə peşə təlimi" kurslarında iştirak etməklə, maraqlandığı peşənin incəliklərini ekspertlərdən öyrənə və ciddi müşahidə altında bacarıqlarını təcrübədə sınaqdan keçirə bilər.***

# SEDA layihəsi üzrə növbəti uğurlar

USAID AMERİKA XALQINDAN

**SEDA-nın şüarı: Regional inkişaf naminə vətəndaşların iştiraklılığının artırılması**

EAST·WEST MANAGEMENT INSTITUTE



Beyləqan r-nu Aşıqalılar icmasında Ümumi İcma görüşü

Rüb ərzində SEDA Layihəsi üzrə hədəf icmalarda fəaliyyətlər davam etdirilmişdir. Belə ki, layihə barədə imformasiya yayımı və İİŞ seçimi ilə bağlı ümumi icma yığıncaqları keçirilmiş, İİŞ üzvlərinin bacarıqlarının artırılması məqsədi ilə dəyirmi masa və təlimlər təşkil olunmuşdur. Həmçinin, icmaların ehtiyaclarının müəyyənləşdirilməsi, sorğuların keçirilməsi, layihə təkliflərinin hazırlanması istiqamətində İİŞ və icma üzvləri ilə müvafiq tədbirlər keçirilmiş, müzakirələr aparılmışdır.

**İcma yığıncağına hazırlıq görüşləri:** Aran və Şimal regionunda layihə barədə məlumatın verilməsi məqsədilə Şimal regionu üzrə - Xaçmaz rayonunun Ağçay, Arzu və Çarxı, Aran regionu üzrə - Beyləqan rayonunun Aşıqalılar, Aşağı Çəmənli və İmamverdilər, Sabirabad rayonunun isə Qaraqşlı icmalarında yerli Bələdiyyə, İcra nümayəndəsi və icma fəalları ilə 7 görüş keçirilmişdir. Görüşlərdə keçiriləcək icma yığıncaqlarının mühüm əhəmiyyət kəsb etdiyi, bunun üçün icma üzvlərinin maksimum həmin yığıncağa cəlb edilməsinin vacibliyi vurğulanmışdır.

**SEDA-nın mesajları:**
*Əməkdaşlığın genişləndirilməsi*
*İqtisadi imkanların yaradılması*
*Bacarıqların artırılması*
*Vətəndaş cəmiyyətinin cəlbi*

**Layihə barədə məlumat yayımı:** Hədəf icmalarda SEDA layihəsi haqqında, həmçinin İİŞ üzvlərinin seşim kriteriyaları və öhdəlikləri barədə məlumatların verilməsi və İcma müzakirələrinə başlamaq məqsədilə Şimal regionu üzrə Xaçmaz rayonunun Ağçay, Arzu və Çarxı, Aran regionu üzrə isə Beyləqan rayonunun Aşıqalılar, Aşağı Çəmənli və İmamverdilər, Sabirabad rayonunun isə Qaraqaşlı icmalarında Ümid" SİDİB-nin əməkdaşları, kənd İcra Nümayədələri, Yerli Bələdiyə və icma üzvlərinin iştirakı ilə 7 ümumi icma yığıncağı keçirilmişdir. Görüşdə SEDA layihəsi, komponentləri, məqsəd və vəzifələri, layihənin prosedurları və fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilmiş, gələcək əməkdaşlıq imkanları müzakirə edilmiş, icma səfərbəçiləri tərəfindən İİŞ-nın seçim meyarları və öhdəlikləri tədbir iştirakçıların nəzərinə çatdırılmışdır.



Beyləqan r-nu Aşağı Çəmənli icmasında İİŞ seçimi

**İİŞ seçimi:** İİŞ-nın seçilməsi (yenidən formalaşdırılması) məqsədi ilə Şimal regionu üzrə Xaçmaz rayonunun Ağçay, Arzu və Çarxı, Aran regionu üzrə isə Beyləqan rayonunun Aşıqalılar, Aşağı Çəmənli və İmamverdilər, Sabirabad rayonunun isə Qaraqşlı icmalarında 7 ümumi icma yığıncağı keçirilmişdir. "Ümid" SİD İB-nin səfərbərçiləri tərəfindən yığıncaq iştirakçılarına SEDA layihəsi barədə ətraflı məlumatlar verilmiş və seçkinin keçirilməsi prosesi yığıncaq iştirakçılarına izah edilmişdir. Yığıncaqlar zamanı icma üzvləri tərəfindən 15-25 nəfər irəli sürülmüş, səsvermədən sonra səs çoxluğunun sayına görə 9-13 nəfər İİŞ üzvlüyünə seçilmişdir.



Xaçmaz r-nu Çarxı icmasında "Səfərbərlik" təlimi

**Bacarıqların artırılması-Dəyirmi masalar və təlimlər:** Şimal regionu üzrə 11, Aran regionu üzrə isə 10 icmada İİŞ üzvlərinə 5 mövzuda - "İİŞ üzvlərinin vəzifə və öhdəlikləri, koordinatorun seçimi, icma əsasnaməsi, xəritəsi, pasportu və İİŞ-nın struktur cədvəlinin hazırlanması", "Ehtiyacların müəyyənləşdirilməsi və sorğuların keçirilməsi", "Sorğuların təhlili və İcma ehtiyaclarının qiymətləndirilməsi", "Layihə təklifinin hazırlanması" və "Layihənin texniki təsvirinin hazırlanması" - 14 Dəyirmi Masa keçirilmiş, müzakirələr aparılmışdır. İİŞ üzvlərinin bacarıqlarının artırılması məqsədi ilə Şimal regionu üzrə 4, Aran regionu üzrə 6 icmada İİŞ üzvlərinə 5 mövzuda - "İcmanın səfərbər olunması", "Liderlik və komanda işi", "İcma fondu və icma töhfəsinin idarə olunması", "Ehtiyacların qiymətləndirilməsi" və "Layihə təklifinin yazılışı" - 36 təlim keçirilmişdir.

**Layihə təklifləri:** Şimal regionu üzrə 2, Aran regionu üzrə 2 icmadan 12 ilkin layihə təklifi qəbul edilmişdir. Aran və Şimal regionu üzrə 14 icmada 14 layihənin Texniki təsvirinin ilkin əl yazma variantı hazırlanaraq Umid tərəfindən təkmilləşdirilmişdir.

USAID AMERİKA XALQINDAN

# Uğurlu sonluq ən boyük hədiyyədir

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAİD), BP və tərəfdaşlarının maliyyə dəstəyi ilə "Süd və Süd Məhsulları İstehsalçılarına İcma Əsaslı Dəstək" layihəsi 2009-cu ilin noyabr ayından fəaliyyətə başlamış və artıq yekunlaşmışdır. Layihənin uğurla başa çatması üçün sonuncu rübdə də əvvəlki rüblərdə olduğu kimi inamla çalışılmışdır.



"Südün Dəyər Zənciri - imkanlar, inkişaf perspektivləri və problemlər" konfransı

Rüb ərzində əsasən süd istehsalçılarının bazara çıxışlarının yaxşılaşdırılması üçün STM-nin qurulması və bərpası, bilik və məlumatlarının artırılması, əlaqələrin genişləndirilməsi üçün müxtəlif tədbirlərin təşkili və digər fəaliyyətlər yerinə yetirilmişdir.

Hədəf süd istehsalçılarına "Baytarlıq və zootxeniki tədbirlərinin təşkili, onların idarə olunması", "Ekoloji təmiz südün istehsal və emal gigiyenası", "Təşəbbüs qruplarının yaradılması", Uçotun aparılması" mövzusunda təlimlər keçirilmişdir. Fermerlərlə yanaşı STM-nin işçilərinin də uyğun bilik və bacarıqlarının artırılması məqsədi ilə "Südün analiz olunması, analiz vasitələrinin iş prinsipi və onlardan istifadə qaydaları", "STM-də Sanitar gigiyenik vəziyyətə nəzarət" mövzularında təlimlər verilmişdir.

Həmçinin, hədəf icmalarda nümunəvi təsərrüfatların yaradılması, heyvanların normal bəslənməsi, onlara qulluq olunmasında stimul yaratmaq üçün "Təmiz ferma" müsabiqəsi keçirilmişdur. Müsabiqədə 7 icmadan müraciət etmiş 40 təsərrüfatda qiymətləndirmə aparılmış və 8 təsərrüfat nümunəvi təsərrüfat kimi qiymətləndirilmişdir. Bu təsərrüfatlara hədiyyə dəstləri təqdim olunmuşdur.

29 noyabr, 2012-ci il tarixində, "Südün Dəyər Zənciri - imkanlar, inkişaf perspektivləri və problemlər" mövzusunda konfrans keçirilmişdir. Konfransın əsas məqsədlərindən biri Südün Dəyər Zənciri iştirakçılarını bir araya gətirməklə, südçülük sahəsində olan problem və çətinliklərin müəyyənləşdirilməsi, onların həll yollarının araşdırılması və bu istiqamətdə əməkdaşlıq imkanlarının genişləndirilməsinə şərait yaratmaqdan ibarətdir. Konfransda Səba və Atena Süd Emalı zavodlarının nümayəndələri, Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutunun, Aqromexanika Elmi Tədqiqat İnstitutunun, Azərbaycan Dövlət Aqrar Universitetinin, Azərbaycan Texnologiya Universitetinin, layihə ekspertləri, STM-nin işçiləri, Dəstək Mərkəzlərinn və hədəf icmaların nümayəndələri iştirak edirdilər. Konfransın sonunda süd sektorunun inkişaf etdirilməsi üçün bütün iştirakçıların birgə fəaliyyətlərinin vacibliyi qeyd olundu və gələcəkdə qarşılıqlı əməkdaşlıq olunması qərara alındı.



Qarabucaq icmasında STM-nin açılış mərasimi

20 noyabr, 2012-ci il tarixində, Kürdəmir rayon Karrar qəsəbə və Qarabucaq icmalarında quraşdırılmış STM-nin açılış mərasimiləri keçirildi. Açılışları olan STM-dən Karrar qəsəbə icmasında 410-dan çox təsərrüfatın (1840 nəfərə qədər icma üzvü) Qarabucaq icmasında isə 310-dan çox təsərrüfatın (1500 nəfərə qədər icma üzvü) birbaşa faydalanacağı gözlənilir. Bununla yanaşı, Goranboy rayonunun Quşçular icmasında STM qurulmuş və Yevlax STM-də bərpa işləri yerinə yetirilmişdir.

Rüb ərzində ümumilikdə STM fəaliyyət göstərən icmalarda 250-dən çox təsərrüfatdan 279658 litr xam süd toplanaraq SEM-nə təhvil verilmişdir. Bu icmalarda süd istehsalı və satışından 114660 manat vəsait əldə olunmuşdur. Bu da hər bir təsərrüfatın orta hesabla hər bir ayda 150 manat gəlir əldə etməsi deməkdir.

***İnanırıq ki, layihə başa çatdıqdan sonra da hədəf və qonşu icmalar layihənin nəticələrindən daha çox bəhrələnəcək və nailiyyətlər əldə edəcəklər. Südçülük sahəsi ilə məşğul olmağa bir biznes sahəsi kimi yanaşacaqlar.***

## *Coca-Cola Fondunun dəstəyi ilə məktəblərdə ekoloji tərbiyə və təhsil*



2012-ci ilin yanvarından başlamaqla, "Ümid" Sosial İnkişafa Dəstək İctimai Birliyi Coca-Cola Fondunun maliyyə dəstəyi ilə ***"Su və kanalizasiya sistemlərin-in bərpası, ekoloji quşənin yaradılması"*** layihəsini icra etməyə başlamışdır. Layihənin aşağıda göstərilmiş iki ilkin məqsədindən başqa, daha geniş və mükəmməl məqdəslərin reallaşdırılması təkzibedilməz olmuşdur:

- Ekoloji şəraitin yaxşılaşdırılması, məktəblilər arasında maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və ekoloji təlim-tərbiyənin aparılması

- 300, 301, 297 və 298 saylı orta məktəblərdə su və kanalizasiya sistemlərinin təmir və bərpası.

***Təhsil başlıca olaraq insan davranışının formalaşdırılması məqsədini daşıyır.***
***Bütün dünyada cəmiyyətlər vətəndaşlarının davranışını inkişaf etdirmək üçün təhsil sistemləri yaradırlar.***

Müxtəlif maraqlı tərəflərlə müzakirələrdən sonra, orta məktəblərdə ekoloji davranışın inkişafı məqsədilə "Sosial-Ekoloji Model"in tətbiqi təşəbbüsünün göstərilməsi qərara alınmışdır.
Layihə üzrə fəaliyyətlər aşağıdakı komponnetlər üzrə həyata keçirilmişdir:

1) Məktəblərdə ekoloji maarifləndirmə fəaliyyətlərinin həyata keçirilməsi

2) Təmiz və təhlükəsiz suya çıxışın yaxşılaşdırılması

3) Məktəblərdə kanalizasiya sisteminin və ekoloji infrastrukturun bərpası, ayaqyollarının təmiri

Ekoloji maarifləndirmə tədbirləri çərçivəsində məktəblərdə 6-9-cu sinif şagirdlərindən ibarət olan "Coca-Cola-nın dostları" qrupları yaradılmış, məktəblilər arasında "Təmiz su için", "İçdiyimiz su", "Su həyatın mənbəyidir" bukletləri paylanmılş, "Ekologiya və Ətraf Mühit" təlimləri keçirilmiş və şagirdlərin estetik və ekoloji təhsilində müsbət rol oynayan Ekoloji Guşələr yaradılmışdır.

Ikinci komponent çərçivəsində 297, 300 və 301 saylı orta məktəblərdə su təmizləyici filterlər quraşdırılmış və bu filterlərdən məktəblərin həyatinə su xətti çəkilmişdir. Bunun nəticəsində 4473 nəfərin ekoloji təmiz suya çıxışı yaxşılaşmışdır.

3-cü komponent çərçivəsində məktəblərdə kanalizasiya sistemləri bərpa edilmiş və ayaqyolları təmir edilmişdir.

Bütün bu fəaliyyətlərin ayrılmaz hissəsi kimi, həm məktəblərdə təmir işləri zamanı, həm də filterlərin quraşdırılması zamanı paralel olaraq maarifləndirmə tədbirləri həyata keçirilmişdir. Belə ki, şagirdlər arasında təmiz su içməyin, həmçinin məktəblərdə ayaqyollarının təmiz saxlanmasının faydaları və pis sanitariya şəraitinin fəsadları haqqında maarifləndirmə işləri aparılmışdır.



*Layihənin açılış mərasimi*

Layihə üzrə tikinti və maarifləndirmə fəaliyyətlərinin yekunlaşması Azərbaycanda təhsil ilinin başlanmasına təsadüf etmişdir. Layihə üzrə açılış mərasimi yeni təhsil ilinin başlanması ərəfəsində sentyabrın 10-da məktəblərin yerləşdiyi rayonun-Binəqədi rayonunun İH-nin iştirakı ilə təşkil edilmişdir.


## Ünvanlarımız

**Baş ofis:**
**Bakı şəhəri, Ə.Cavad küç.-7A**
**Tel./ Faks (+99412) 434 53 15; (+99412) 434 96 98**

**Bakı sahə ofisi:**
**Nərimanov r-nu., Orucəliyev küç.- Q-46**
**Tel: (+99412) 437 82 39**

**Sumqayıt sahə ofisi:**
**6-cı mkr-n, C. Məmmədquluzadə küç.**
**Tel: (+99418) 642 55 18**

**Gəncə regional ofis:**
**Süleyman Rəhimov küç.-30**
**Tel: (+99422) 57 48 62**
**Katel: (+99912) 417 96 98**